# Xocalı soyqırımına həsr olunmuş konfrans

**Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi və Azərbaycan İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Ukrayna Ali Radasının deputatı, elm, ictimai və siyasi xadimlər iştirak ediblər.**

Tədbirdə çıxış edən Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev ermənilərin son iki əsrdə Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətini tarixi faktlarla konfrans iştirakçılarının diqqətinə çatdırıb. 30 il bundan öncə erməni silahlı birləşmələrinin Xocalı şəhərində törətdiyi qətliamdan bəhs edən diaspor rəhbəri qeyd edib ki, 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalını yerlə-yeksan edib.

Dünya birliyinin və beynəlxalq təşkilatların indiyədək belə bir bəşəri cinayətə hüquqi-siyasi qiymət verməmələrini tarixi ədalətsizlik kimi səciyyələndirən Azərbaycan İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlov son illər Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlərin erməni vəhşiliyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadığını diqqətə çatdırıb.



Xocalı faciəsini faşizm nümunəsi adlandıran Ukrayna Ali Radasının deputatı Yuriy Kamelçuk aradan 30 il keçməsinə baxmayaraq, belə bir bəşəri cinayəti törədənlərin beynəlxalq tribunal qarşısında cavab verməmələrini tarixi ədalətsizlik kimi xarakterizə edib. Deputat bildirib ki, o zaman Xocalı şəhərində baş verən faciə bir xalqa qarşı yönəlmiş soyqırım hadisəsi olub. Dinc əhalinin, xüsusən də, uşaqların, qadınların qətliamı qəddarlıqdır.

Konfransda çıxış edən Ukrayna Krım Tatarları Assosiasiyasının koordinatoru Elvin Kadırov tatarların tarixində baş verən qanlı hadisələrlə Xocalı soyqırımı arasında paralellər aparıb.

Tədbirdə professorlar Fərhad Turanlı, Natiq Məmmədov, Arif Quliyev, Azərbaycan İslahatçı Gənclər Birliyi təşkilatının sədri Fərid Şahbazlı, İrpen şəhər Azərbaycanlıları Konqresinin sədri Namiq Quliyev və digər şəxslər belə bir ağır cinayəti törədənlərin beynəlxalq tribunal qarşısında cavab vermələrinin vacibliyini vurğulayıblar. Dünya birliyini və beynəlxalq təşkilatları haqqa və ədalətə səsləyən natiqlər Xocalını yerlə-yeksan edən erməni canilərinin ən ağır cəzaya məhkum edilmələrinin zəruriliyini bildiriblər.

**Möhsüm QƏDİROĞLU,**
**"Respublika" qəzetinin**
**Ukrayna və Şərqi Avropa ölkələri üzrə**
**xüsusi müxbiri.**